AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Qubad İbadoğlu Almaniyaya gedib

Sentyabr 29, 2026




Qubad İbadoğlu

İqtisadçı alim **Qubad İbadoğlu** bu gün, sentyabrın 29-u səhər Azərbaycanı tərk edərək Almaniyaya gedib.

"Azadlıq" qəzetinə açıqlamasında o, səhhəti ilə əlaqədar olaraq xaricə çıxış qadağasının ləğv edildiyini bildirib. **"Müayinə, müalicə və zərurət yaranarsa, ürəyimdən açıq tibbi əməliyyat olunmaq üçün Almaniyaya gəldim"**, –İbadoğlu bildirib.

Məsələ ilə bağlı rəsmi qurumlardan münasibət öyrənmək mümkün olmayıb.

Q.İbadoğlu 2023-cü il iyulun 23-də Azərbaycanda həbs edilmişdi. O, əvvəlcə mütəşəkkil qrupun tərkibində saxta pul və ya qiymətli kağızların hazırlanması, əldə edilməsi yaxud

yayılmasında günahlandırılıb. Daha sonra dini ekstremist materialların hazırlanması, saxlanması və ya yayılmasında ittiham olunub.

2024-cü ilin aprelində onun səhhəti ilə əlaqədar ev dustaqlığına buraxıldığı açıqlanıb. Sonradan bu qərar polis nəzarətinə vermə qətimkan tədbiri ilə dəyişdirilib. Avqustda isə onunla bağlı cinayət işi ümumi icraatdan ayrılıb.

Q.İbadoğlu həbsdən çıxandan bir müddət sonra rəhbərlik etdiyi Azərbaycan Demokratiya və Rifah Partiyasının fəaliyyətinin dayandırılması barədə qərar qəbul olunub. İdarə Heyəti partiyanın fəaliyyətinə xitam verilməsini qurumun rəsmi qeydiyyata alınmaması ilə əsaslandırıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur